





# Azərbaycan xalçaları Şirvanşahlar sarayında

Bakının tarixi özəyi olan İçərişəhərin ən yüksək yerində yerləşən, «daşlar üzərində donmuş simfoniya», «yatmış qu quşu», «Xəzərin mirvarisi» adlanan Şirvanşahlar Sarayı Azərbaycanın nadir memarlıq incilərindən, milli dəyərlərindən biridir. Azərbaycan saray inşaatının ən dəyərli nümunəsi olan, dövlətçilik rəmzimiz - Şirvanşahlar Sarayı xalqımızın maddi və mənəvi mədəniyyətinin qızıl fondudur.

Şirvanşahlar Sarayı Kompleksi 1957-ci il aprelin 23-də Azərbaycan SSR Nazirlər Sovetinin 206 saylı sərəncamı ilə qoruq elan edilmişdir. "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət tarixi - memarlıq qoruq - muzeyi 1964-cü il yanvar ayının 3-də Nazirlər Sovetinin 3 saylı sərəncamı ilə yaradılmışdır. Onun 1964-cü ildən fəaliyyət göstərən «Qız Qalası» adlı filialı mövcuddur.

«Şirvanşahlar Sarayı Kompleksi» Dövlət tarixi-memarlıq qoruq-muzeyi 1974-cü ildə keçmiş Sovetlər İttifaqı miqyasında ikinci, 1976-cı ildə isə birinci dərəcəli muzeylər səviyyəsinə qalxmışdır. Sonrakı illərdə - Azərbaycan Respublikası Mədəniyyət Nazirinin 8 fevral 1994-cü il tarixli 33 saylı əmri ilə «Şirvanşahlar Sarayı Kompleksi» Dövlət tarixi-memarlıq qoruq-muzeyi respublika əhəmiyyətli aparıcı muzeylər kateqoriyasına aid edilmişdir.

Abidələrin təbliği və qorunması "Şirvanşahlar Sarayı Kompleksi" Dövlət tarixi- memarlıq qoruq-muzeyinin əsas fəaliyyət istiqamətidir.

Qoruq-muzey yarandığı gündən fəaliyyətinin ekskursiya, mühazirə, stasionar və səyyar sərgi kimi müxtəlif forma və metodlardan istifadə etməklə ümumdünya şöhrəti qazanmışdır. Burada viktorina və müsabiqələr, konfrans, treninq və dəyirmi masalar təşkil edilir. Qoruq-muzey dünya muzeyləri ilə sıx əməkdaşlıq əlaqələri saxlayır, Rusiya, Türkiyə, İran, Amerika, İngiltərə, İtaliya, Yaponiya, Norveç kimi ölkələrin muzeyləri ilə təcrübə mübadiləsi aparır. Qoruq-muzeyin ümumi sahəsi 2232 kv.m, əməkdaşlarının ümumi sayı 76 nəfərdir.

Qoruq-muzeyin fondlarında 39977 ədəd maddi-mədəniyyət nümunəsi qorunub saxlanılır. Onlardan 25280 ədədi əsas fonda, 14697 ədədi isə köməkçi fonda daxildir.

Burada əsas, elmi-köməkçi, elmi arxiv, mübadilə və müvəqqəti saxlama fondları fəaliyyət göstərir. "Tətbiqi-sənət" fondunda 1400, "Foto" fondunda 4284, "Qrafika" fondunda 562,"Numizmatika" fondunda 2019, "Arxeologiya" 4600 ədəd eksponat saxlanılır.



## Saray binası



İkimərtəbəli saray binası kompleksin daha qədim tikilisidir. Vaxtilə sarayın 52 otağı varmış; 27 otaq I, 25 otaq isə II mərtəbədə yerləşirmiş. Şirvanşahlar Sarayını görmək şərəfinə nail olmuş səyahətçilər onun günbəzlərinin firuzəyi rəngli kaşılarla örtüldüyünü xəbər verirlər. 1501-ci ildə Sarayın müxəlləfatı, xəzinəsi, kitabxanası Səfəvilər tərəfindən müsadirə olunmuşdur. 1857-ci ildə saray binası kompleksin digər abidələri ilə birlikdə Rusiya hərbi intendantlığının - hərbi təsərrüfat idarəsinin istifadəsinə verilmişdir. Məhz o vaxt II mərtəbənin plan quruluşuna ciddi xəsarət yetirilmişdir.

XX əsrin 60-cı illərində saray binası abadlaşdırılmış, 2002-2004-cü illərdə isə burada rekonstruksiya işləri aparılmışdır.

## Divanxana



Şirvanşahlar Sarayı Kompleksinin ən klassik guşəsi olan Divanxana rəsmi qəbul mərasimlərinin, dövlət şurası iclaslarının keçirildiyi yer olmuşdur. Bu iclaslar bilavasitə şah və əyanların iştirakı ilə xalçalarla bəzədilmiş ratonda tipli səkkizguşəli zalda keçirilirdi.

Buranın dövlət məşvərət işlərinin keçirildiyi yer olmasını abidənin ratondasının qərb fasadındakı portalın zəngin xalçavari ornamentləri arasında ustalıqla yerləşdirilmiş dövlətçilik rəmzi olan tac təsviri təsdiqləyir. Abidə XV əsrdə Şirvanşah Xəlilullah tərəfindən inşa etdirilmişdir.

2002-2003-cü illərdə abidədə konservasiya işləri aparılmışdır.

## Seyid Yəhya Bakuvinin məqbərəsi

Xalq arasında «Dərviş» türbəsi kimi tanınan Seyid Yəhya Bakuvi məqbərəsi saray kompleksinin cənub həyətində yerləşir.



Mənbələr məlumat verir ki, Bakuvi Şirvanşah Xəlilullahın sarayında saray alimi olmuşdur. Şamaxı şəhərində anadan olmuş Seyid Yəhya gənc yaşlarından sufizmin «xəlvəti» təriqətinin başçısı Şeyx Sədrəddinin tərəfdarına çevrilmişdir. Şeyx Sədrəddinin ölümündən sonra, Seyid Yəhya Bakıya gəlir və ömrünün son günlərinədək sarayda yaşayır. Mənbələrə görə, o, hicri tarixi ilə 868-ci ildə (miladi tarixi ilə 1464-cü ildə) vəfat etmişdir. Ehtimal olunur ki, o, saray kompleksinin ərazisində dəfn edilmişdir. Seyid Yəhya Bakuvinin sufi-mistik xarakterli təxminən 30 adda əsəri müasir dövrümüzə qədər gəlib çatmışdır.

2003-cü ildə abidədə bərpa işləri aparılmışdır.



## Səbayıl kitabələri



Qoruq-muzeyin orta həyətində sərgilənən Səbayıl kitabələrinin Şirvanşahlar Sarayı ilə birbaşa əlaqəsi vardır. Bütün bu daş kitabələr Bakı buxtasından, suyun altından çıxarılmışdır. Bakı buxtasında, sahildən təxminən 300 metr aralı kiçik bir ada vardır. Orta əsrlərdə bu ada üzərində qəsr inşa edilmişdir. Salnamələrin verdiyi məlumatlara görə, 1306-cı ildə dənizdə güclü zəlzələ baş vermiş, suyun səviyyəsi qəflətən yuxarı qalxdığı üçün ada və onun üzərindəki qəsr suyun altında qalmışdır. Yalnız XVIII əsrdən dəniz suyunun səviyyəsi aşağı düşməyə başlamış və bu prosses XX əsrin əvvəllərinə qədər davam etmişdir. 30 il müddətində - 1939-cu ildən 1969-cu ilə qədər suyun altında arxeoloji tədqiqat işləri aparılmış və məlum olmuşdur ki, əsrlər boyu suyun altında qaldığından qəsr dağılmış, təkcə onun özülləri və epiqrafik abidələri qalmışdır. Onların hündürlüyü 70, eni 25-50, qalınlığı isə 12-15 sm-dir. Suyun altından 699 ədəd epiqrafik abidə tapılmışdır. On beş yarımdairəvi bürclə əhatə olunmuş qəsrin uzunluğu 180, eni isə 40 m-dir. Səbayıl kitabələri qəsrin xarici divarlarının yuxarısında, sanki bir kəmər kimi dövrələnmişdir. Daş kitabələr üzərindəki yazılar ərəb qrafikası ilə, əsasən fars dilində yazılmışdır.



Qalanın inşa vaxtının ilk göstəricisi divarın hörgüsündən tapılmış, XIII əsrin I rübündə zərb edilmiş Şirvanşah III Fəribürzün sikkələri olmuşdur. Şirvanşah III Fəribürz 1225-1243-cü illərdə hökmranlıq etmişdir. Qalanın tikilib başa çatdırılması vaxtı onun hakimiyyət illərinə təsadüf edir. Arxeoloji tədqiqatlar zamanı 632 hicri tarixli (1234-1235) yazı parçası tapılmışdır. Məlum olmuşdur ki, qəsrin memarının adı Əbdülməcid, epiqrafik abidələrinin müəllifinin - xəttatın adı isə Zeynəddin bin Əburəşiddir. Səbayıl qəsri təyinatına görə dəniz müdafiə qalası olmuşdur.

## Şərq portalı



Şirvnaşahlar Sarayının Şərq portalı kompleksin bütün abidilərindən xeyli sonra tikilmişdir. Onu Bakı valisi Rəcəb baba Bakuvinin əmri ilə hicri 994-cü (miladi təqvimlə 1585-ci) ildə Təbriz yaxınlığındakı Vəlyankuh kəndinin sakini memar Əmirşah inşa etmişdir. Çox ehtimal ki, bu portal indiyədək qalmamış, yaxud tikilməmiş binaya aid olmuşdur. Portalın deyil, imarətin tikilməsindən xəbər verən kitabənin mətni də buna işarə edir.

2006-cı ildə abidədə konservasiya işləri aparılmışdır.

## Saray məscidi



Şah məscidi kompleksin aşağı həyətində yerləşir. Məsciddə iki ibadət zalı vardır; böyük zal şah və onun əyanları üçün, kiçik zal isə saray qadınları üçün nəzərdə tutulmuşdur.

Məscidin mərkəzi zalının yuxarı künclərinə dar boğazları içəriyə - zala doğru yönəldilmiş böyük gil küplər hörülmüşdür. Bu, bir tərəfdən özünəməxsus səsgücləndirici rol oynayır, digər tərəfdən isə seysmik konstruktiv-inşaat üsulu hesab olunur. Məscidin mərkəzi zalının cənub divarında mehrab yerləşir.

Məsciddəki müxtəlif forma və təyinatlı oyuqlar namaz xalçaları, çıraqlar, "Qurani-Kərim" kitabları və təsbehlərin qoyulması üçün istifadə edilirdi.

Məscid minarəsinin stalaktit kəməri altındakı yazıda bu məscidin Şirvanşah Xəlilullahın əmri ilə h. 845-ci (miladi təqvimlə 1441) ildə inşa edildiyi göstərilir.

2006–cı ildə saray məscidində bərpa işləri aparılmışdır.

## Şirvanşahlar türbəsi

Şirvanşahların ailəvi türbəsi hicri 839-cu (miladi təqvimlə 1435) ildə Şirvanşah Xəlilullahın tapşırığı ilə memar Məhəmməd Əli tərəfindən Şirvanşahın anası Bikə xanım və 6 yaşlı oğlu Fərrux Yəminin dəfni üçün inşa edilmişdir. Sonradan türbədə Şirvanşah Xəlilullahın özü, zövcəsi Xanikə Sultan, oğlanlarından Məhəmməd İbrahim, Əmir Bəhram, Şeyx Saleh torpağa tapşırılmışdır.

1946-cı ildə abidədə arxeoloji tədqiqat işləri aparılarkən, qəbirlərdən bəzi əşyalar tapılmışdır. Bu əşyalar qazıntı işlərini bilavasitə həyata keçirmiş AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır.

Türbədə 2002- 2003-cü illərdə bərpa işləri aparılmışdır.

## Saray hamamı

Şah ailəsinə məxsus olmuş bu hamam 1939-cu ildə aparılmış arxeoloji qazıntı işləri zamanı aşkar edilmişdir. O, 1953-cü ildə qismən torpaqdan təmizlənmiş, 1961-ci, 2005-ci illərdə isə konservasiya edilmişdir.

Saray hamamı bütün orta əsr Şərq hamamlarının səciyyəvi xüsusiyyətlərini özündə əks etdirmişdir. Hamamın bir hissəsi yerin altında, digər hissəsi isə yerin üstündə inşa edilmişdir. Bu, qışda istiliyi, yayda isə sərinliyi qoruyub saxlamağa imkan yaratmışdır. Səyahətçilərin məlumatına görə, hamam həm daxildən, həm də xaricdən yaxşı bəzədilibmiş. Bunu otaqların birinin divarlarında qorunub saxlanmış əlvan rəngli kaşı parçaları da təsdiqləyir. Su «xəznə» adlanan su tutumu yerlərindən yuyunma otaqlarına bir-birinə paralel şəkildə çəkilmiş 2 saxsı boru vasitəsilə paylanırdı. Bəzi yerlərdə qismən qorunub saxlanmış bu boruların birindən «külxana» otağında qızdırılmış isti su, digərindən isə soyuq su keçirdi. Hamamın isidilməsi yuyunma bölməsinin döşəməsi altından, eləcə də divar qalınlığından keçən buxar kanalları vasitəsilə həyata keçirilirdi.



Saray alimi Bədr Şirvaninin «Divan»ına əsasən, hamamın əsası hicri 840-cı (miladi təqvimi ilə1438-ci) ildə qoyulmuşdur.

*http://www.shirvanshah.az/*





Qoruq-muzeyin fondunda XVIII-XIX əsrlərə aid 108 ədəd xalça və xalça məmulatı mühafizə olunur. Onlardan bəziləri haqqında məlumatları təqdim edirik.

"Əjdahalı" xalça. Yun. Xovlu. 232x536.
XVII əsrin I rübü. Qarabağ qrupu. Azərbaycan.



"Namazlıq". Yun. Xovlu. 115x140. XIX əsr. Şirvan qrupu. Azərbaycan.

Xalça. Yun. Xovlu. 101x165. XIX əsr.
Qazax-Borçalı qrupu. Azərbaycan.







Xalça. Yun. Xovlu. 88x109.
XIX-XX əsrlər. Quba qrupu. Azərbaycan.

Xalça. Yun. Xovlu. 121x169.
XIX-XX əsrlər. Şirvan qrupu. Azərbaycan.



Xalça.Yun. Xovlu. 105x236.
XIX əsr. Şirvan qrupu. Azərbaycan.





Xurcun. Yun. Xovsuz. 41x114. XX əsrin əvvəlləri. Bakı qrupu. Azərbaycan



Xurcun. Yun. Xovsuz. 41x113.
XX əsrin əvvəlləri. Bakı qrupu. Azərbaycan.



Sumax. Yun. Xovsuz. 207x330.
XIX əsr. Quba qrupu. Azərbaycan.





Sumax. Yun. Xovsuz. 196x305.
XIX əsr. Quba qrupu. Azərbaycan.